# Naxçıvandan başlayan qurtuluş yolu

1980-ci ilin sonları, 1990-cı illərin əvvəlləri Azərbaycanı bürümüş xaos onun ayrılmaz guşəsi olan Naxçıvan Muxtar Respublikasından da yan keçməmişdir. Muxtar respublikada vəziyyəti daha da ağırlaşdıran amillərdən biri də bu diyarın Ermənistan tərəfindən blokadaya alınması idi. 1990-cı ilin yanvar hadisələrindən sonra Azərbaycan KP MK-nın birinci katibi Əbdürəhman Vəzirovun Moskvaya qaçması və onu Ayaz Mütəllibovun əvəz etməsi vəziyyəti yaxşıya doğru dəyişmədi. Əksinə daha da mürəkkəbləşdirdi. Buna görə də Naxçıvan əhalisi bütün ümidini bu torpağın yetirməsi, artıq bütün dünyada görkəmli siyasətçi kimi tanınan Heydər Əliyevə bağlamışdı. Ancaq həm Moskvadakı, həm də Bakıdakı rəhbərlik Heydər Əliyevin Azərbaycana gəlməsinin əleyhinə idi. Bütün bu müqavimətlərə baxmayaraq Heydər Əliyev 1990-cı ilin iyulunda Naxçıvana gəldi.



Bütün respublika vətənin xilaskar oğlunun pişvazına çıxmışdı. İnsanlar təkcə Naxçıvandan yox, Azərbaycanın hər yerindən Heydər Əliyevlə görüşmək üçün gəlirdilər. Xalqın ona olan sevgisi Heydər Əliyevə sanki yeni bir güc verdi. O, Naxçıvanda, bütünlüklə Azərbaycanda olan mövcud vəziyyətlə tanış olur, bu tarixi məqamdan xalqını, vətənini uğurla gələcəyə aparmaq üçün yollar axtarırdı. Heydər Əliyev dahi uzaqgörənliklə bilirdi ki, SSRİ adlı imperiyanın süqutuna çox az qalıb. Ona görə də müstəqil olacaq vətənin gələcəyinin möhkəm təməllər üzərində qurulması əsas məsələ idi. Heydər Əliyevin Naxçıvandakı varlığı Azərbaycan hakimiyyətini çox narahat edirdi. Hakimiyyət başa düşürdü ki, xalqın Heydər Əliyevə sevgisi və inamı çox yüksəkdir.

Bakıdakı hakimiyyət öz vəziyyətinin qeyri-sabit olduğunu başa düşərək Heydər Əliyevin mümkün yüksəlişinə hər vasitə ilə mane olmağa çalışırdı. Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası parlamentinə sədr seçilməsi ehtimalını anlayan Azərbaycan rəhbərliyi bu seçimə qarşı olduğunu gizlətmirdi. Hakimiyyət başa düşürdü ki, bu vəzifə Heydər Əliyevin Azərbaycan Respublikası rəhbərliyinə gəlməsi yolunda ilk pillə ola bilər.

Azərbaycanın rəhbəri Ayaz Mütəllibovun bütün səylərinə baxmayaraq 1991-ci ilin sentyabrın 3-də Heydər Əliyev yekdilliklə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilirdi.

Elə həmin gün Ayaz Mütəllibov Heydər Əliyevin hakimiyyətini məhdudlaşdırmaq üçün Naxçıvana Azərbaycan Respublikası Daxili İşlər Nazirinin müavini Tofiq Kərimovun rəhbərliyi altında 35 nəfərdən ibarət DİN əməkdaşını göndərdi. Onlar Naxçıvanda fövqəladə vəziyyət elan etməli, bütün idarəçilik sahəsinə nəzarəti öz üzərlərinə götürməli idilər. Heydər Əliyev elə həmin günün səhəri Ayaz Mütəllibovun adamlarını Naxçıvandan çıxmağa məcbur etdi.

Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda vəziyyət tədricən normalaşdırdı. Ancaq xaricdən ermənilərin təzyiqi, onlar tərəfində təcavüzün hər an olması ehtimalı əhalini daim gərginlikdə saxlayırdı.

Heydər Əliyev erməni blokadasının yaratdığı çətinliyi azaltmaq üçün birinci növbədə Türkiyə ilə nəqliyyat əlaqəsi yaratmağı qərara aldı və buna nail oldu. Bu möhtəşəm hadisə 300 minlik Naxçıvan əhalisini aclıqdan xilas etdi.

Türkiyə ilə yaranmış əlaqə Naxçıvanı təkcə humanitar fəlakətdən yox, erməni təcavüzündən də qurtardı. 1992-ci ilin yazında ermənilər muxtar respublikanın sərhədlərində döyüş əməliyyatına başlayanda Türkiyə liderləri birmənalı şəkildə bildirdilər ki, 1991-ci ilin Qars müqaviləsinə görə Türkiyə Naxçıvan Muxtar Respublikasının qarantıdır.

Bir dövlət xadimi kimi Heydər Əliyev nüfuzu şübhəsiz ki, qonşu İranın da Naxçıvanda yaranmış vəziyyətə qarşı müsbət təsir göstərdi. Orada da muxtar respublikanın blokadasına etinasız qalmadılar. İran İslam Respublikasının o vaxtki Prezidenti, görkəmli dövlət xadimi Rəfsancaninin Heydər Əliyevin Tehrana rəsmi səfəri üçün öz şəxsi təyyarəsini Naxçıvana göndərməsi Heydər Əliyev şəxsiyyətinə olan böyük ehtiramın nümunəsidir.

Heydər Əliyev Naxçıvanda işlədiyi 2 ilə yaxın müddətdə çox böyük işlər gördü. Azərbaycanın üçrəngli Dövlət Bayrağı ilk dəfə Naxçıvanda qaldırıldı. Naxçıvanın bir qarış torpağının belə ermənilər tərəfindən işğalına imkan verilmədi. Bu illər ərzində Azərbaycan xalqının Heydər Əliyevə olan ümid və inamı daha da artdı. Nəhayət, xalqın sevgisi və etimadı sayəsində xalqımızın və dövlətçiliyimizin xilaskarı Heydər Əliyev 1993-cü ildə ikinci dəfə Azərbaycanda hakimiyyətə gəldi.

**Qüdrət SƏMƏDOV.**

# Heydər Əliyev və kitabxanaların inkişaf yolu

Azərbaycanda mədəniyyətin mühüm tərkib hissələrindən biri kitab və kitabxana mədəniyyətidir. Yazının meydana gəlməsi, əlifbanın meydana gəlməsi, yaranması kitabın təşəkkülü və inkişafı, kitabxanaların yaranması xalqımızın mədəniyyət tarixinin inkişafında və formalaşmasında xüsusi yer tutur. Azərbaycan xalqının qədim tarixini vərəqləyərkən belə bir tarixi həqiqət ortaya çıxır ki, bu xalq hələ tarixin erkən çağlarından başlayaraq təhsilə, elmə, kitab və kitabxanalara çox böyük qiymət vermiş, onu qoruyub saxlamış, elm və mədəniyyətin inkişafı üçün əlindən gələni etmişdir.

Azərbaycan çox qədim və qiymətli kitabları zəngin kitabxanaları olan bir ölkə kimi tarixdə silinməz izlər qoymuşdur. Kitab xəzinəsinin bəzəyi olan "Avesta", "kitabi Dədə Qorqud" və s. kitabları yaratmış xalqın ölməzliyi və müdrikliyi insanı valeh edir. Xalqımız bəşəriyyətə Nizmi, Füzuli, Xəqanı, Nəsimi kimi böyük mütəfəkkir şairlər bəxş etmişdir ki, onların əsərləri bəşər mədəniyyətinin inciləri sırasına daxil edilmişdir. Bu möhdəşəm kitabların toplanıb saxlanılmasında, nəsildən-nəsilə çatdırılmasında kitabxanalarımızın əvəzsiz rolu olmuşdur. Bu baxımdan böyük iftixar hissi ilə demək olar ki, Azərbaycanda kitab və kitabxanalara böyük qayğı vardır.

Azərbaycanın müstəqilliyi dövründə dövlətin kitabxana işi sahəsində həyata keçirdiyi tədbirlər ilk növbədə ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Böyük ulu öndər Heydər Əliyev kitabxana, kitabxana işi və kitabxanaçı haqqında parlaq nitqlər söyləmiş, kitabxananı "xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyi" adlandırmışdır.

Beləliklə xalqımızın böyük oğlu dünya şöhrətli siyasətçi, müstəqil Azərbaycan dövlətçiliyinin memarı, ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi dövründə kitabxana işi dövlət qayğısı ilə əhatə edilmiş, bu sahədə həmişə böyük öndərin diqqət mərkəzində olmuşdur.

Fərəhləndirici haldır ki, son illərdə kitabxana işi haqqında bir çox sərəncamlar və dövlət qərarları verilmişdir.

Müasir Azərbaycan tarixinin, yeni parlaq səhifələrinin yazılmasında böyük rolu olan dahi şəxsiyyət Heydər Əliyevin davamçısı İlham Əliyevin də kitabxana quruculuğu sahəsində rolu böyükdür. Buna misal olaraq Prezident İlham Əliyevin 12 yanvar 2004-cü ildə imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamı böyük əhəmiyyət kəsb edir. Bu sərəncamın ən mütərəqqi və humanist cəhətlərindən biri çap edilmiş kitabların bütün kütləvi kitabxanalara və tədris müəssələri kitabxanalarına pulsuz verilməsidir. İlham Əliyevin kitabxanalara qayğısı bununla bitməmişdir. 20 aprel 2007-ci ildə "Azərbaycanda kitabxaba fəaliyyətinin yaxşılaşdırılması haqqında sərəncamı", 6 oktiyabr 2008-ci ildə "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" nı imzalaması buna misal ola bilər.

**(Ardı 4-cü səhifədə).**

### *Xam neftin və neft məhsullarının ixracı davam edir*

SOCAR 2015-ci ilin avqust ayında Novorossiysk limanından 84 min 913 ton, Supsa limanından 254 min 422 ton, Ceyhan limanından 871 min 787 ton xam neft ixrac edib.

Ümumilikdə yanvar-avqust ayları ərzində Novorossiysk limanından 930 min 671 ton, Supsa limanından 1 milyon 864 min 59 ton, Ceyhan limanından isə 11 milyon 272 min 41 ton xam neft ixrac olunub. SOCAR tərəfindən ixrac olunmuş xam neftin göstəriciləri həm Azərbaycan dövlətinə, həm də şirkətin özünə məxsus xam neft həcmlərini əks etdirir.

Neft məhsullarının ixracı da davam edir. Şirkətin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi tərəfindən keçən ay 90 min 491 ton dizel yanacağı, 27 min 984 ton təyyarə yanacağı ixrac olunub.